# MUSİQİNİN YARANMASI VƏ İNSAN HƏYATINDA ROLU

**Qorxmaz Əlilicanzadə**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, AMEA İncəsənət və Memarlıq İnstitutunun aparıcı elmi işçisi, dosent
**E-mail:** alilicanzade@rambler.ru

İnsanları maraqlandıran suallardan biri də musiqinin və alətlərin yaranma tarixidir. Müxtəlif dini kitablarda, əfsanələr, rəvayətlər, risalələr və hədislərdə musiqinin yaranması barədə çeşidli dəlillərə rast gəlirik. Həmin məlumatlarda oxşar və fərqli məqamlar - musiqinin səmaviliyi, bəşər həyatının ayrılmaz hissəsinə çevrilməsi, sair məqamlarla tanış oluruq. Musiqi insanları sevindirir, düşündürür, kədərləndirir, kövrəldir, cuşa gətirir, xəyala aparır. Hətta müalicəvi təsiri də artıq sübuta yetirilib. İnsanlar el şənliklərində musiqi sədaları altında rəqs edərək özlərinin xoşbaxt anlarını yaşayırlar. Musiqi alətləri, musiqiçilər, xanəndələr, rəqqaslar sayəsində musiqinin ecazkarlığı, təsir qüvvəsi nümayiş olunur. Bu məqalədə mövzu ilə bağlı bir sıra düşündürücü suallara cavab tapmağa çalışacağıq.



Əfsanələrdə, nağıllarda, rəvayətlərdə, tarixçilərin araşdırmalarında müxtəlif məlumatlarla rastlaşırıq. Əgər təbiətdə olan təbii səsləri əsas götürsək görərik ki, çox zəngin musiqi harmoniyası var - yaradıcısı, "ən böyük bəstəkar" isə Tanrının özüdür. Bu nöqteyi-nəzərdən deyə bilərik ki, Yer üzü yaranandan musiqi var. Sadəcə, bəşər övladı həmin səsləri eşidib, onlarda musiqi uyğunluğunu duyub öz bədihəsində (fantaziyasında) canlandırıb ürəyinin nəğməsini yaratmağa çalışıb. İnsanlar müxtəlif olduğu kimi musiqi duyumları da fərqlidir. Bu səbəbdən dahi bəstəkarlar özəlliyi və üslubu ilə bir-birindən seçilirlər.

Müqəddəs kitablara əsaslanıb desək ki, göydə tanrı və mələklər var, onda olmuş hadisəni qeyd etmək tam yerinə düşər. Youtube-də bir videoya rast gəldim, məni çox heyrətləndirdi. Gənc oğlan müqəddəs Afon dağına ziyarətə gedir və monastrların birində yerləşən mehanxanada yer alır. Gecənin bir vaxtı eşidir ki, məbədgahdan (xram) qulağına səslər gəlir. Elə bilir ki, slujba (ibadət - Q.Ə) başladı və geyinib məbədgaha yollanır. Gəlib görür, məbədgahın qapıları açarla bağlanıb. Qapının şüşələrindən içəri baxanda oxuyan mələklərin səsini eşidib təəccüblənir. Tez mehmanxanadan audiomaqnitafonu götürüb həmin yerə qayıdır və səsi yazır. Mələklərin musiqisini dinləyən yüz faiz yəqin edəcək ki, xorun müşayiəti ilə bir uşaq oxuyur. Səsdə nə qədər saflıq, büllur kimi təmiz tembr var. Burda məni cəlb edən bir məqam oldu, diqqətlə qulaq asdıqda aydın şəkildə eşidilir ki, uşaq muğam ifa edir. Fakta inansaq və dəlil kimi qəbul etsək, deyə bilərik ki, musiqi Yer üzünə ilahidən, kainatdan gəlib. Muğam bizə Tanrıdan bəxş edilib, insan yaranan gündən musiqi olub.

Hədislərdə yazılır ki, Tanrı insanı (Adəm peyğəmbəri) yaradandan sonra əmr verir ki, ruh onun bədəninə daxil olsun. Ruh razılaşmır. Onda cənab Cəbrayıla deyir ki, bərbəd alətində bir musiqi ifa eləsin. Ruh musiqinin sədasından məst olub Adəmin cisminə daxil olur.

Musiqi daim insanlara müsbət və mənfi təsirini göstərir. Müsbət təsiri odur ki, qəlbi şadlandırır, düşündürür, ağladır, məst edir, hətta müalicəvi xüsusiyyətləri də olur. Mənfi təsiri insanları cuşa gətirməsi, savaşa kökləməsi, hətta dəli də edə bilməsidir. Bu səbəbdən muğam müstəsna şəkildə insanların ruhunu oxşayır və müalicəvi əhəmiyyətə malikdir. İlk musiqinin janrı, forması, üslubu heç kimə bəlli deyil. Heç bir musiqişünas alim bu barədə dəqiq məlumat verə bilməz. Dini baxımdan musiqi ilahidən göndərilib. Hər xalqın özünün milli musiqisi

var. Fikrimcə musiqinin təməli "ana laylası"ndan başlayıb. Musiqinin yaranmasına əsas səbəb məhəbbətdir. Ananın balasına, bəndənin tanrıya, insanın vətənə, torpağa, valideynə, sevgili yarına olan sevgisi musiqi sədasına səbəb olur desəm, yanılmaram. Musiqi ülvi hisslərin, həssaslığın, düşüncələrin, emosiyaların bədihəsidir (fantaziyasıdır - Q.Ə.). Ətraf mühitin və təbiətin insana təsiri sayəsində musiqi formalaşır. İnsanların bir qismi musiqini yaradır, digəri musiqini dinləyir. Musiqini yaradanların sayı dedikcə azdır. Onları hətta Tanrının seçilmişləri adlandırırlar. Təbii ki, bu sahədə fitri istedadın rolu danılmazdır. Yaradıcı istedada malik olanlar musiqi yaratmağa qadirdilər. Əgər yuxarıdakı mənbəyə əsaslansaq deyə bilərik ki, muğam Tanrı dərgahından yerə göndərilən bir musiqidir. Sadəcə, insanlar musiqini öz təxəyyüllərində bədihə üslubundan istifadə ilə inkişaf etdirərək həmişə axtarışda olublar. Bu səbəbdən musiqidə janrlar, üslublar, müxtəlif istiqamətlər yaranmağa başlandı. Mən deyərdim ki, muğam musiqinin ən mükəmməli və zirvəsidir. Dünyanın butun ölkələrində, butun millətlərin musiqisini muğam "açarı" ilə təyin etmək mümkündür ki, hansı şöbənin üstündə yazılıb. Lakin dünyanın heç bir musiqisi muğamın "açarı" ola bilməz. Yalnız "major", "minor"la ümumi yanaşma ola bilər. Bu yanaşma yetərli deyil. Bir sözlə,"muğam dünya musiqisinə bir açardır".

"Musiqi" sözü yunancaya aid edilərək "musiqi", "miziki", "muzika" sözlərindən götürülüb. Yunanlar ilham pərilərini (İlahə), Zefsin 9 qızı və Mnemosyeni - Alp dağlarının qüllələrində dogulmuş və məskunlaşmışlar - Mises, Mousai, Moisaiya, deyə çağırardılar. Museslər (Zevsin qızları) mahnı və rəqslərlə dağların qüllələrində məşğul olar və Mnemos yeni bu yolla səsləyərdilər: yəni o şey ki, var idi və olacağın xatirəsidir, yada salınmalıdır. Museslər kainatın qələbəsini, harmoniyanın xaosa qələbəsini oxuyardılar." Bu məqamda müəlliflə razılaşmıram. Əslində qədim yunan dilində musiqi "musikos" adlanır. Azəri dilində "musiqi", rus dilində "muzıka", türk dilində "müzik" deyilir. Qədim Sumərlərdə (Şumer adı rus alimlərinin yalnış fikridir - Q.Ə.) "müzik" sözü olub. Farslardan bizim dilimizə gəlib. Qədim türk sözü olan "müzik" kəlməsindən farslar "musiqi", yunanlar isə "musikos" sözünü əxs etmişlər. Hər bir xalq kimi, yunanlar da musiqini ilahiləşdiriblər. Heç bir xalqın tarixində musiqinin yaranma səbəbi, necə yaranması barədə dəqiq məlumatlar yoxdur. Yunanlar musiqi alətinin yaranmasını Pifaqorun adı ilə bağlayırlar. Alim təbiətdə eşitdiyi bir səsin səbəbini araşdırdıqdan sonra ilk yunan nəfəs musiqi alətini yaradıb. Türk dünyasında isə alətlərin yaranması Dədə Qorqudun adı ilə bağlıdır.

"Musiqi ilə bağlı məqalələrdə (islam dünyasında) musiqinin tapılmasını və yayılmasını peyğəmbərlərə aid edirlər: Hz. Cəbrail Musa (ə) peyğəmbərə buyurur: "Ya Musa Səqi" - nəticədə Musa və Səqi sözlərindəki "S" hərfi assimilyasiyaya uğrayaraq musiqi sözü yaranır. Musa (ə) Nil çayına yetişən vaxt bir daş görür. Hz. Cəbrailin əmri ilə həmin daşı götürür, öz qövmü ilə "Tih" adlanan əraziyə çatır. 40 gün orada qalırlar, çölli-biyabanda susuzluqdan əziyyət çəkirlər. Musa (ə) dua edir, Hz. Cəbrail nazil olur və buyurur: "Ey Musa, əsanla həmin daşa vur! Musa (ə) daşa vuran kimi ondan su qaynamağa başlayır və 12 hissəyə bölünür. Onun hər bir hissəsindən bir səs yüksəlir. Hz. Cəbrail gələrək deyir: "Ey Musa, öyrən." Musa (ə) 12 muğamı həmin yerdən öyrənib."

Bu mənbə ilə də razılaşa bilmirəm. Əvvəla, yəhudilərdə muğam adlı musiqi yoxdur. Yəhudi millətinin musiqisində muğamın heç bir üslubda ifası yoxdur. Yəni, nə türklərdəki kimi "uzun hava", nə ərəblərdəki kimi "məqam" formasında, nə də bizim "muğam şöbələri" formatında ifaları olmayıb. Mümkündür ki, Musa (ə)-a Hz. Cəbrail nazil olub və yəhudi musiqisinin ifasını əmr edib. Bu, yəhudi musiqisinin yaranma ehtimalı sayıla bilər. Lakin muğamın yaranmasını Həzrət Musaya (ə) və yəhudi millətinə bağlamağa heç bir əsas görmürəm.

"Həmçinin islam dünyasındakı musiqi ilə bağlı əsərlərdə muğamların hər biri bir peyğəmbərə aid edilirdi: "Yeddi muğam və avaz mövcud idi ki, hər biri bir peyğəmbərə aiddir. Belə ki, "Rast" muğamı – Həzrət Adəmə, Üşşaq - Nuh (ə), "Hüseyni" muğamı – Yaqub (ə), "İraq" muğamı – Əyyub (ə), "Nəva" – Davud (ə), "Hicaz" muğamı Süleyman (ə) və "Rəhavi" muğamı Həzrət Peyğəmbərimizə aid edilir. "Busəlik" muğamı isə səhabələrdən birinə mənsubdur." Bu barədə məlumat, orta əsrlərdə Özbəkistanda yaşamış Dərviş Əlinin əlyazmalarında, daha dəqiq desək, musiqi risaləsində yer alıb. Mənbədən göründüyü kimi, bu siyahıda Musa (ə) adı yazılmayıb.

"İslami mənbələrdə isə belə qeyd olunur: "Adəm yaranır və onun bədəninə ruh yeridilməli olur. Lakin həmin ruh Adəmin bədəninə yerləşməkdən imtina edir. Çünki Adəmin gələcəyindən və taleyindən qorxurdu. Cəbrailə əmr gəlir ki, təmburda "Tərz" muğamı çalınsın ki, ruh məst şəkildə Adəmin bədəninə daxil olub öz işinə başlasın". Çox maraqlı mənbədir. Məlum məsələdir ki, muğam ifa ediləndə insanın bədəni süstləşir, dinləyici istər-istəməz məstləşir. Bu halı millətindən asılı olmayaraq, hər bir insan yaşayır. Muğam insanı xəyallara aparır, düşündürür, kövrəldir. Muğamın insan ruhuna bu qədər təsiri var.



Sumərlərin - ən qədim, mükəmməl, sivil dövlətin tarixində musiqi haqqında müəyyən məlumatlarla rastlaşa bilərik. Haşiyədən çıxıb bir məqama toxunmaq istərdim. Sumərşunaslığla məşğul olan alimlərin əksəriyyəti sumərlərin türk millətinə aidliyini təsdiqləyirlər. Tanınmış sumərşünas alim Tariyel Vəli Azərtürk əsaslı dəlillərlə iddia edir ki, sumər dili deyilən bir söz yoxdu, qondarma sözdür, sumər dediyimiz dövlət olub, onların dili "AZƏR TÜRKÜ" dilidir. Mən Tariyel müəllimin araşdırmaları ilə tanış olandan bəri bu fikrin tərəfdarıyam.

"Azərbaycan" jurnalının Təbriz nəşrində "Bəşər tarixində tanınan ən qədim musiqi" adlı məqalədə sumər musiqisi haqqında bəzi məlumatlar var: "Bu millətin musiqisi digər millətlərdən fərqli, yalniz saraya, məbədə və mərasimlərə aid olmamışdır. Xüsusi saz növləri və musiqi alətləri vardı ki, sadə camaat ondan istifadə edir: şeiri musiqi ilə bərabər, istər tək, istərsə də hamılıqla oxuyardılar." Mənbədən belə məlum olur ki, o dövrün millətləri (xalqları) musiqiləri harda gəldi ifa etmirdilər. Musiqi alətləri yalnız saraylarda, məbədlərdə və xüsusi mərasimlərdə ifa olunurdu. Burdan nəticəyə gəlmək olar ki, digər millətlər musiqiyə böyük ehtiram və müqəddəs münasibət göstərirdilər. Sumərlərdə isə musiqi saraylarda, məbədlərdə və xüsusi mərasimlərdən əlavə el şənliklərində də səslənirdi.

Həmin mənbədəki "xüsusi saz növləri və musiqi alətləri vardı" ifadəsi bizdə maraq oyadır, saz nədir, musiqi alətləri nədir? Məgər saz və musiqi aləti eyni anlam deyil? Bəlkə müəllif aşıqların ifa etdikləri sazı nəzərdə tutur? Müasir dövrümüzdə saz alətinin müxtəlif növləri var. Cürə saz (4-6 simli, ölçülərinə görə ən kiçikdir), Qoltuq saz (6-7 simli, ölçülərinə görə ortadır), Ana saz (8-9 simli, ölçülərinə görə ən iri sazdır), Tavar saz (meydan sazı). Türklər sazı bağlama saz adlandırırlar. Saz alətinin digər mizrablı simli alətlərdən fərqi "bağlama" üslubunda hazırlanmasıdır. Bağlama sazda əsasən tut ağacından "qabırğa"lar hazırlanır və sonda "qabırğa"lar sıra ilə, xüsusi formada, yapışqan vasitəsi ilə birləşdirilir. Hazırda da azəri sazları bu üsulla hazırlanır. Bir növ saz da var ki, ona "oyma saz" deyilir. Kötüyün içini ovub, çanaq, qol-kəllə qarışıq, bütöv alət düzəldirlər. İndi də Türkiyədə bu üsulla sazlar hazırlanır. Bağlama sazın digər yolla hazırlanma üsulu da var ki, ağac kötüyünü tam yonub, saz çanağı formasına salırlar və qol-kəlləni ayrıca düzəldib sonradan birləşdirirlər.

Əgər sazın kökü Dədə Qorqudun adı ilə bağlı olan "qopuz" sayılırsa onda qopuzun Sumərlərdən xeyli sonra yarandığını nəzərə alıb deyə bilərik ki, saz növləri dedikdə elə musiqi alətləri nəzərdə tutulur. Şairlər, şeir söyləyənlər, mahnı oxuyanlar musiqi alətlərinin müşayiəti ilə, xalqın qarşısında, öz sənət və bacarıqlarını nümayiş etdirirlər. Bəlkə də müəllif Sumərlər dövründə sazlar deyəndə yaylı və mizrablı simli alətləri, musiqi alətləri deyəndə zərb və nəfəs alətlərini nəzərdə tutur.

"Şumerlərdə musiqi haqqında xüsusi mövqe olub. Hökmdar Laqaşın dövrünə aiddir:

"Həyəti şadlıqla,
Sarayı sevinclə doldurun.
Ceyran boylu, ürək dolu sevgi ilə,
Dözümlə gözlərdən yaşları silin."

Gün ərzində insanlar zövqlərinə uyğun musiqilər dinləyir və ruhlarını onunla qidalandırırlar. İstər məişətdə, istər ictimaiyyətdə, istərsə də iş gördüyü məqamlarda musiqiyə ehtiyacları olur. Evdə, həyət-bacada iş görərkən ara-sıra musiqi zümzümə edirlər. Analar balasını yatırdanda, mətbəxdə iş görəndə, bağda işləyəndə dodaqaltı nəsə oxuyurlar. Kişilər tarlada, bostanda çalışanda, dağda heyvan otaranda hətta mahnılar qoşar, muğam ifa edərdilər. Cəmiyyətdə el şənliklərində, bayramlarda, toylarda musiqisiz keçinmək mümkün deyil.

"Sumərlər üçün musiqi həyatın ayrı-ayrı təsvirlərinin müxtəlif pərdəsidir, insan həyatının həqiqi səhnəsidir. Məsələn, tütək çalan çoban təsviri - öz qoyunlarını və itini tütək çalmaqla məftun edir. Və ya çobanın saz çalaraq sürünü çəmənliyə aparmasının şahidi oluruq. Tütək çalmaq türklər yaşayan məntəqələrdə Anadoludan tutmuş qərbi Çinə kimi çobanlar üçün adi bir iş idi. Türk əfsanə və dastanları musiqi ilə bəyan edilir. Hətta mərsiyələrin oxunuşu belə, Şumerlər arasında musiqinin bir bölümü hesab olunur."

Bu mənbədə "Sumərlər üçün musiqi həyatın ayrı-ayrı təsvirlərinin müxtəlif pərdəsidir, insan həyatının həqiqi səhnəsidir" cümləsi məndə musiqiyə, muğama fərqli baxış, münasibət imkanı yaratdı. Bildiyimiz kimi musiqi 7 notdan, 5 yarım tondan və koronsor səslərdən ibarətdir. Bu notların vasitəsi ilə muğamlar, rənglər, təsniflər, diringilər, simfoniyalar, aratoriyalar, ariyalar, xalq mahnıları, aşıq mahnıları, bəstəkar mahnıları, rəqs havaları, caz musiqisi və sair sənət əsərləri yaranır. Hər bir musiqi əsəri, muğam şöbələri insan həyatının həqiqi səhnəsidir. Balet əsərlərində sözsüz səhnələrdə ifaçılar rəqs edərkən musiqi dili və hərəkətlə insan həyatının tarixini, dərdini, sevincini və digər mövzuları izləyicilərin qarşısında canlandırırlar.

"Sumərlər bugünkü həyatı təhlükədən qorumaq üçün xəstəlik, bəxtsizlik və.s kimi musiqidən istifadə edirdilər, axirət dəmində də bəla və təhlükədən uzaq olmaq üçün yenə də musiqiyə üz tuturdular. Onların nəzərində musiqi heyvanları ram etməkdən ötrü vasitə idi. Onlara görə heyvanlar insanlardan daha artıq musiqidən ləzzət alır və onu dərk edirdilər. Saz və avazlarla həkk olunmuş müxtəlif heyvanların təsvirləri bu həqiqətdən soraq verir."

Musiqinin müalicəvi olmasını son onilliklərdə başa düşməyə başlayıblar. Xüsusi ofislərdə insanları musiqi ilə müalicə etməyə başlayıblar. Lakin əfsus ki, Avropada, Uzaq Şərqdə, Hindistanda da bu növ işlə məşğul olurlar. Azərbaycanda bu işə biganəlik var. Konsert zallarında ifaçılar musiqi ilə seyrçiləri sevindirir, düşündürür, kövrəldir. Bu ona sübutdur ki, musiqi insanlar uçun "dərman"dır. Sadəcə bu "dərman"dan istifadə etmək lazımdır. Təbriz şəhərində Yaşar Nahid-Azər adlı bir alim arxivlərdə işləyərkən Səfiyyəddin Urməvinin elmə məlum olmayan "Əl-mocizetol fi əl-musiqi" risaləsi ilə rastlaşıb. Əsərdə hansı muğam şöbələrinin ifası vasitəsilə insanlarda hansı xəstəlikləri müalicə etmək barədə elmi dəlillər var. Yaşar Nahid-Azərlə Təbrizdə dünya şöhrətli nəqqaş Yunis Meşinçinin evində tanış olduq. Mənim ixtira etdiyim musiqi alətlərinin ifasını eşidib, görəndən sonra belə qərarlaşdıq ki, Azərbaycanda S.Urməvinin risaləsi əsasında, mənim alətlərimin ifası ilə insanların müalicəsi üçün məkan ayırıb, dünya arenasına çıxmağa cəhd edək.

"Musiqinin yaranması haqqında Amerika qırmızıdərililərinin belə bir rəvayəti mövcuddur: insanın xəlqindən əvvəl metafizik aləmin varlıqları bir-biri ilə əqlaqələrini musiqi və avaz vasitəsi ilə yaradırdılar. Onlar həqiqi musiqini insanın azadlığı adlandırır və həyatın əzab-əziyyət çərxindən xilas olması kimi bilirlər." Bu mənbədə xüsusi fəlsəfə var. Metafizik aləm deyəndə əsasən mələklər nəzərdə tutulur. Yuxarıda təqdim etdiyim Afon dağındakı məbədlərin birində baş verən hadisə, mələklərin oxuması, Amerika qırmızıdərililərinin rəvayəti ilə uyğunluq təşkil edir. Əksər dinlərdə, əsasən xristian, islam dinlərində ayələr musiqi ilə oxunur. Məbədgahda iştirak edən insanlar bir neçə saat oxunan ayələri dinlədikdən sonra sanki ruhlarının təzələndiyini hiss edirlər. Məbədgahlardan çıxan insanlar özlərini sakit bir ab-havada, sanki heç bir dərdi, problemi olmayan kimi hiss edirlər. Bu səbəbdən rəvayətdə deyildiyi kimi, "onlar həqiqi musiqini insanın azadlığı adlandırır və həyatın əzab-əziyyət çərxindən xilas olması kimi bilirlər".

"Zərdüştlərin Avesta dilində "Eşo", "Əşo" və ya "Eşa", "Əşa" sözləri müqəddəs məna daşıyır. Belə ki, Zərdüştün adını "Əşozərdüşt" kimi səsləndirirdilər. Əşk və ya aşuk Əşqanilər şahının ümumi adları idi ki, çox ehtimal, sözün kökü burdan götürülüb və müqəddəs anlamındadır. Türk dili və onun ləhcələrinin kökü Ariyayi dillərinə gedib çıxır. Bu ehtimal da vardır ki, "aşiq" və ya "aşuq" sözləri aşik, aşuk, əşk, əşo və əşa sözlərinin xüsusi tələffüzləridir və müqəddəs kişi mənasını daşıyır, bu da ozanların və aşıqların adları və xüsusiyyətlərindəndir. (Mənbə: "Ayine və avaz" Məhəmməd Rza Dərvişi, səh. 106)" Bu mənbədə müəlliflə razılaşa bilmirəm. Türk dilinin "ariyayi dilləri"nə heç bir aidiyyatı yoxdur. Fars dili türk və ərəb dillərinin sayəsində xeyli formalaşıb və zənginləşib. Ərəb dilinin zənginləşməsində Sumər - azər türk dilinin böyük rolu olub. Mənbədə "aşiq" və ya "aşuq" sözləri aşik, aşuk, əşk, əşo və əşa sözlərinin xüsusi tələffüzləridir desək, az olar. Aşiq, aşuq, aşik, aşuk, əşk sözləri "əşo" və "əşa" sözlərindən alınma sözlərdir desək, yanılmarıq. Əgər Zərdüştlərin Deyildiyi kimi, Avesta dilində "Eşo", "Əşo" və ya "Eşa", "Əşa" sözləri müqəddəs məna daşıyır və müqəddəs adam, müqəddəs kişi anlamın verirsə, bu, islamda da öz əksini tapmışdır. Müsəlmanlar Allahın rəsulu, yəni elçisi Həzrət Məhəmmədə, on iki İmama müqəddəs adam, müqəddəs kişi kimi "eşq"lərini elan ediblər. Onların müqəddəsliyinə, paklığına, saflığına "aşiq" olduqlarını söyləyiblər. "Eşq" kəlməsi uca Allaha, Rəsuluna və səhabələrinə məxsusdur.

Misiqiyə gəldikdə "Avesta" qatlarından məlum olur ki, muğlar duaları musiqi ilə səsləndirirdilər. Bu musiqi indiki zamanda muğam adlanır. Muğamın təməlinin goydə Tanrı və mələklər tərəfindən qoyulduğu, Həzrət Adəm vasitəsi ilə yerə göndərildiyi və zaman keçdikcə insanlar arasında yayılıb inkişaf etdirildiyini söyləsək, yanılmarıq. El arasında deyim var ki, "musiqi və söz insanlara ilahidən göndərilir..." ❖

**Ədəbiyyat:**

1. "Nəmayeş və musiqi dər İran" III cild Cahangir Nəsriye Əşrəfi, nəş. "Arvən" 1383 il h.ş. üm səh. 599, III cilddə.
2. Jurnal: "Azərbaycan", Təbriz çapı., nəşr tarixi:1380 1.dey hicri qəmər, nömrə: 205
3. Human Əsədi, jurnal: "Xəyal", nömrə 1., çap tarixi:1381 (hicri qəməri)
4. https://www.youtube.com/watch?v=8btebFVEAMw

**Резюме**

Горхмаз Алилиджанзаде

ПРОИСХОЖДЕНИЕ МУЗЫКИ И ЕЕ РОЛЬ В ЖИЗНИ ЧЕЛОВЕКА

Один из вопросов, интересующих людей является история возникновения музыки и музыкальных инструментов. В различных религиозных книгах, легендах, трактатах и хадисах мы сталкиваемся с определенными фактами и предположениями происхождения музыки. Эти аргументы носят в себе похожие и различные моменты. Мы становимся свидетелями того, что музыка небесная, она становится неотъемлемой частью жизни людей.
Даже лечебный эффект музыки уже доказан. Благодаря музыкальным инструментам, певцам (ханенде), танцорам, музыкантам демонстрируются чудеса музыки. В этой статье мы попытались найти ответы на вопросы, наводящие на интересные размышления.
**Ключевые слова:** эстрада, танец, музыка, музыкальные инструменты, мугам

**Summary**

Gorkhmaz Alilijanzade

THE ORİGİN OF MUSİC AND İTS ROLE İN HUMAN LİFE

One of the questions people are interested in is the history of the creation of music and musical instruments. In various religious books, legends, treatises, and hadiths, we come across with certain facts and assumptions about the origin of music. In these arguments, we are faced with similar and different points. We are witnessing that heavenly music is becoming an integral part of people's lives. Music makes people happy, sad makes them think and dream. Even the healing effect of music has been proven. People experience their happy moments by dancing to the music at festivities. Thanks to musical instruments, singers (khanende), dancers, musicians, the wonders of music are demonstrated. In this article, we tried to find answers to questions that lead to human thought.
**Key words:** estrada, dance, music, musical instruments, mugam